# "Müəllim" sözünü müqəddəs edən müəllim...

*Onu çoxdan tanıyıram. Uşaq vaxtlarından... Böyük qardaşımla dostluq edirdilər. Bir sinifdə oxumuşdular, deyəsən.*

*Bizi 2 nömrəli 8 illik məktəbi bitirəndən sonra, təhsilimizi davam etdirmək üçün, o vaxt qəsəbəmizdə yeganə olan 1 nömrəli tam orta məktəbə göndərdilər. Həmin məktəbdə də müəllim kimi ilk tanışlığımız oldu, onunla. Doğrudur, onun haqqında eşitmişdik... Çox tələbkar müəllim olduğunu bildiyimizdən, məhz onun kimya fənnini sinfimizə tədris edəcəyi xəbəri bizə çatanda, məktəbdə həm savadı, həm də "şuluxluğu" ilə ad çıxarmış IX"a" sinfinin şagirdlərini,—bizi yumşaq desək, "sevindirməmişdi..."*

*Onun dərsində "dəcəl" sinfimizdən əsər-əlamət də qalmırdı. 45 dəqiqə dərs müddətində heç kimin cınqırı da çıxmırdı. Dərsi elə izah edirdi ki, deyirdin gözəl bir hekayə danışır, nəfəsi də səssiz alırdıq. Sinifdə milçək uçsa, səsin eşidirdik. Hətta dərs bilən də dərsi danışmağa çəkinirdi, ilk vaxtlar... Vaxt keçdikcə ona, onun dərs metonduna bələd olduqdan sonra hamımız onu sevdik. O, dərsi elə izah edirdi ki, kitabı oxuyanda hiss edirdin ki, bunları, artıq, bilirsən...*

Söhbət 1973-cü ildə Gəncə Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və həmin ildən Vəndam kənd 3 nömrəli 8 illik məktəbində fəaliyyətə başlamış Əhməd Mirzalıyevdən gedir.

Müəllimə dünyanın ən məşhur insanları öz sevgi və sayğılarını müxtəlif aforizmlərlə bildiriblər; müəllimi günəşə, bağbana, mühəndisə bənzədiblər. Deyiblər ki, müəllim günəş kimi gənc qəlbi və ağlı işıqlandırır, uşaqlara bağban qayğısı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızır. Elə Əhməd müəllim kimi.

Müəllim, məktəb direktoru, rayon təhsil şöbəsinin müdiri, işlədiyi vaxtlarda da o, bir arzu ilə işləyib,—mənəviyyatı sağlam və savadlı nəsil yetişdirmək. Onun şagirdlərinin əksəriyyəti respublikada keçirilən olimpiadalarda qalib gəlir, qəbul imtahanlarında kimya fənnindən "əla" qiymətlər alırlar.

1996-cı ildə şagirdlərindən 5 nəfərin kimya olimpiadasının qalibi olduğu üçün təhsil nazirliyi tərəfindən pul mükafatına layiq görülmüş və təcrübə mübadiləsi məqsədilə 15 günlük Türkiyəyə ezamiyyətə göndərilmişdi. Dəfələrlə Təhsil Nazirliyinin, 14 dəfə D. İ. Mendeleyev adına Gəncə Kimyaçılar Cəmiyyətinin fəxri fərmanlarına və pul mükafatlarına layiq görülmüş Əhməd müəllim 1981-ci ildə baş müəllim, 1994-cü ildə ali kateqoriyalı müəllim adını, 2000-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə əməkdar müəllim fəxri adını almışdır.

Onun əməyi, əməyinə verilən qiyymət haqqında çox yazmaq olar. Bu kiçik bir məqalənin mövzusu deyil. Bu yazını yazmaqda məqsədim başqadır. Deyirlər ki, "müəllim" sözü müqəddəs deyil, bu sözü müqəddəs edənlər var. Əhməd müəllim belələrindəndir.

Əhməd müəllim həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı Solmaz müəllimə ilə birlikdə 3 övlad böyüdüb boya-başa çatdırıb. Müxtəlif illərdə respublika kimya olimpiadasının qalibi olmuş övladları tibb universitetinin ayrı-ayrı fakultələrini bitirərək, həkim işləyirlər.

Əhməd müəllim hazırda Qəbələ Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi işləyir. İndi də onu, hər an şagirdlər arasında görmək olar. Yuxarıda qeyd etdiyim kimi, "müəllim" sözü müqəddəs deyil, bu sözü, bu sənəti müqəddəs edən nə yaxşı ki, yüzlərlə, minlərlə müəllimlərimiz var.

Nə yaxşı ki, Əhməd müəllimimiz və onun kimi müəllim adını müqəddəs edən müəllimlərimiz var...

✍ **Valeh ƏZİZ.**

# Yenikənd–ənənələr dirçəldilir

***Ötən əsrin ortalarında məskunlaşmış Yenikənd kəndi rayonumuzun inkişaf etmiş yaşayış məntəqələrindəndir. Dağlar qoynunda yerləşən Muçux kəndindən gəlib burada yerləşmiş kənd sakinlərinin əsas məşğuliyyəti maldarlıq olsa da 1970-80-cı illərdə bu kənd qabaqcıl tütünçülük, əkinçilik, kümçülük təsərrüfatları ilə də fərqlənirdi.***

Yenikəndlilər yenidən o ənənələri qaytarmaq əzmi ilə işə girişiblər. Qısa müddətdə xeyli sahədə baramaçılığın yem bazası üçün 500-ə qədər tut (çəkil) tingi, 2 hektar ərazidə fındıq tingləri əkilib. 800 hektar ərazidə isə payızlıq taxıl əkini aparılıb ki, onun təxminən 600 hektarı buğda sahəsidir. Kənd inzibati ərazi nümayəndəliyi qışlağa köçmüş heyvandarlarla da müntəzəm əlaqə saxlayır. Aldığımız məlumata görə istər kənddə, istərsə də qışlaqda olan heyvandarların yem sarıdan heç bir problemi yoxdur.

**«Qəbələ».**

# Valideyn iclası

Arzulla Rəhimov adına Dizaxlı kənd tam orta məktəbində IX, X, XI sinif şagirdlərinin valideyn iclası keçirilmişdir. İclasda məktəb direktoru, müəllimlər iştirak etmişlər.

İclası giriş sözu ilə məktəbin direktoru Mirzəmməd Mirzəliyev açmış, şəhid Arzulla Rəhimovun xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Sonra direktor valideynlərə məktəbdə aparılan təlim-tərbiyə işləri haqqında məlumat vermiş, xüsusilə yuxarı sinif şagirdlərinin yeni həyata hazırlanmasından, bu sahədə valideynlərlə müəllimlərin sıx əlaqəsindən danışmışdır.

Daha sonra IX—XI siniflərin rəhbərləri Zahir Səfərçinov, Məcnun Gülməmmədov, Maral Dostuyeva və Sevda Əsgərova çıxış edərək şagirdlərin qazandığı bilik və bacarıqları, davranışları haqqında valideynlərə məlumat vermişlər. Onlar şagirdlərin daha xoş gələcəyi üçün valideynlərin də məktəblə sıx əlaqəsinin möhkəmləndirilməsinin əhəmiyyətindən danışmışlar. Sinif rəhbərləri nümunəvi şagirdlərin adlarını da çəkmişlər.

Elbrus Əmiraslanov valideynlər adından çıxış edərək, övladlarının təlim-tərbiyəsi yolunda çəkdikləri zəhmətə görə müəllimlərə minnətdarlıq etmişdir.

✍ **Cəlil SƏFƏRÇİNOV,**
**Yeni Dizaxlı kəndi.**

# «Açıq dərs» maraqlı və yaddaqalan oldu

Yaşadığımız XXI əsr yüksək elektron texnologiylar əsridir. Bu gün həyatımızı kompütersiz, internetsiz təsəvvür etmək mümkün deyil. Gələcəyin mütəxəssisi olacaq bu günkü şagirdlərin kompüterlə, internetlə sərbst işləmələrinin, qayğısına qalmaq onlarda yüksək elektron texnologiyalardan düzgün istifadə etmək bacarığını aşılamaq hər bir məktəbin, müəllimin borcudur.

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində müəllimlər işlərini məhz bu istiqamətdə qururlar. Burada bütün fənlərin tədrisi zamanı mütləq müasir elektron texnologiyaların imkanlarından istifadə olunur.

Dekabr ayının 6-da məktəbdə biologiya fənnindən 8 «b» sinfində keçirilən «Açıq dərs» də bu baxımdan çox maraqlı oldu. Müəllim Ruhiyyə Kərimovanın keçdiyi dərsin mövcusu «orqanizmin yorulmayan mühərriki—ürəyin quruluşu və iş prinsipi» haqqında idi. Dərs çox maraqlı və düşündürücü motivasiya ilə başladı. Şagirdlərin ürək haqqında ilkin məlumatları öyrənilərək BİBÖ cədvəlinə yazıldı. Maraqlı və izahlı şəkillər, slaydlar üzərində geniş izahat oldu. Kurikulum qaydasında bölünmüş qruplara iş vərəqələri təqdim olundu. Sonra qrupların təqdimatları dinlənildi, slaydlar, video çarxlar vasitəsiə ətraflı təqdim olundu. Təcrübə üçün gətirilmiş quzu ürəyi nümunəsi üzərindəki izahat dərsi daha maraqlı etdi. Şagirdlər və açıq dərsə dəvət olunmuş qonaqlar ürək haqqında yeni, ətraflı məlumat aldılar. «Açıq dərs»i maraqlı edən məqamlardan biri də interaktiv lövhənin imkanlarından geniş istifadə edilməsi oldu.

«Açıq dərs»in müzakirəsi zamanı Qəbələ Rayon Təhsil Şöbəsi metokabinetinin müdiri Arifə Bayramova, məktəbin direktoru Ədilə Əliyeva, direktor müavini Aynur Qədirova, müəllim Ruhiyyə Kərimova və digərləri öz mülahizələrini bildirdilər. «Açıq dərs»də Qəbələ şəhərindəki digər tam orta məktəblərinin biologiya müəllimlərinin bir qrupu iştirak edirdi.

✍**Vəfa ALXASLI,**
**məktəbin müəllimi.**

# Faydalı bitkilər

## Balqabaq və sağlamlığımız

Antraktida qitəsindən başqa dünyanın istənilən güşələrində yetişə bilən balqabağın insan orqanizminə bir çox faydası var. Bu tərəvəz məhsulunun 700-ə qədər növü məlumdur. Boranıdan xalq təsərrüfatının müxtəlif sahələrində istifadə olunur. Yeyinti sənayesində boranıdan mürəbbə, cem, şirələr, vitamin preparatları hazırlanır. Tərkibində sellüloza, azotlu maddə, yağ, vitaminlər var. Ümumi çəkisinin 75 faizi yeyilir.

## Balqabağın faydaları

İbn Sina «Təbiətnamə» əsərində bu bitkini xərçəng xəstəliyinə qarşı ən təsirli vasitə kimi irəli sürmüşdür. Balqabaq qara ciyərin fəaliyyətini bərpa edir, onu qoruyur, sağlamlıq üçün yumşaldıcı, sidikqovucu və tərqovucu xassəyə malikdir, susuzluğu aradan qaldırır. Bişmiş boranı qızdırma və öskürəyə yaxşı təsir göstərir. Mürəbbəsi beyin fəaliyyətini qüvvətləndirir, tumu yuxusuzluğa yaxşı təsir göstərir. Tərkibindəki karotin vitamini dərini təzələyir, immunitet sistemini gücləndirir. Narıncı rəngli boranı dəmir, kalium, natrium, fosfor, kalsium və maqneziumla zəngindir.

Boranı həmçinin görmə qabiliyyətini artırır, tərkibi az kaloritli şəkərdən ibarət olduğu üçün diabetli xəstələrə məsləhətlər görülür.

## Boranı müasir mətbəxdə

Müasir mətbəxdə boranıdan müxtəlif tərkibli şorbalar, şirniyatlar, tort, keks, pudinq və cemlər hazırlanır. Əksər xalqların mətbəxində boranı mühüm yer tutur: məsələn, İtalyanlar boranı güllərini ədviyyatlı ətlə dolduraraq soyuq yemək çeşidi hazırlayırlar. Avstraliyalılar boranı qəhvəsini çox sevirlər, Meksikada onu düyü, istiotla qarışdırıb dadlı yemək hazırlayırlar. Hindistan mətbəxində isə boranıdan halvaların hazırlanması geniş yayılmışdır.



Azərbaycanda, o cümlədən Qəbələdə balqabaq və ya boranıdan şirələr hazırlanır, qızartma hazırlanır və bir neçə çeşiddə plovlar (aşlar) bişirilir.